**Heydərdən öyrəndim bu ləyaqəti...**

Torpaq vidalaşdı ağlamağıyla,
uzaq səadətin ətri duyuldu,
Heydəri xalqıma qaytarmağıyla
tarix neçə-neçə günahı yudu.

Polad iradəli, qərarı qəti—
"Bakı-Ceyhan" adlı bir ümman axır,
elə bir yenilməz Heydər qüdrəti
əzablı yolların hayıfın çıxır.

Sabahdan söz açdı üzü gülməyən,
sel kimi tökülən qanlar dayandı,
illərlə sədası eşidilməyən
xalqımın əbədi ulduzu yandı.

Ölçüsü bilinməz bu səadətin,
Öndərim, dünyaya vaxtında gəldin,
var ol, Ulu Tanrım, var ol, Millətim,
var ol ki, Heydəri qoruya bildin!

Satqınlıq, iftira, dost xəyanəti...
Heydər bu dünyada nələr görmədi!
Heydərdən öyrəndim bu ləyaqəti—
namərd ayağına mərdi vermədi!

Çağdaş Azərbaycan ölməz əsəri,

Vətənə məhəbbət tək amalıydı.

Heydər—öz Yurdunun sadiq əsgəri,

Türkün ən qüdrətli Generalıydı!

O qədər doğmadı xatirələri,

sönməyən Günəşdi, odlu çıraqdı.

Güc verər hər kəsə nurlu əlləri,

Heydərin ruhu da xalqa dayaqdı...

***Vahid Əziz***

***Respublika. – 2008. – 10 may***